Activity supported by the Canada Fund for Local Initiatives
Activité réalisée avec l'appui du Fonds canadien d'initiatives locales

Canada

MediaVoice

# VƏTƏNDAŞ JURNALISTININ BƏLƏDÇISI



**Vətəndaş jurnalistinin bələdçisi**
© QHT «Media və Kommunikasiya Təhsil və Tədqiqat Mərkəzi «Mediasəs», 2025.

Activity supported by the Canada Fund for Local Initiatives
Activité réalisée avec l'appui du Fonds canadien d'initiatives locales
Canada

MediaVoice

Bu bələdçi “Vətəndaş jurnalistikasının gücləndirilməsi: Tbilisi və regionlarda müxtəlif informasiyaya çıxışın artırılması” layihəsi çərçivəsində, Kanadanın Gürcüstandakı səfirliyi və Kanada Yerli Təşəbbüslər Fondu (CFLI) tərəfindən dəstəklənərək hazırlanmışdır. Bu mətnin məzmununa görə məsuliyyət Mərkəzə aiddir və burada ifadə olunan fikirlər donor təşkilatın mövqeyini əks etdirməyə bilər. Bələdçidə yer alan materialların Mərkəzin yazılı icazəsi olmadan kommersiya məqsədilə çap edilməsi, çoxaldılması və yayılması qadağandır.

Mərkəz, vətəndaş jurnalistlərinə və müstəqil media nümayəndələrinə töhfələrinə görə təşəkkürünü bildirir.

**Bələdçinin istinad qaydası:** *Vətəndaş jurnalistinin bələdçisi, Media və Kommunikasiya Təhsil və Tədqiqat Mərkəzi «MediaSəs», 2025.*

# MÜNDƏRICAT


**Giriş** 4

**1. Vətəndaş jurnalistikasının rolu və məqsədi** 5

**2. Vətəndaş jurnalistləri kimlərdir?** 6

2.1. Vətəndaş jurnalistlərinin kateqoriyaları 6

2.2. Vətəndaş jurnalisti və peşəkar jurnalist 8

2.3. Vətəndaş jurnalisti və ifşaçı (Whistleblower) 10

**3. Vətəndaş jurnalistlərindən yeddi hekayə** 12

**4. Medianın və vətəndaş jurnalistlərinin əməkdaşlığı** 14

**5. Qanunvericilik və məhkəmə təcrübəsi** 15

5.1. Beynəlxalq və yerli məhkəmə təcrübəsi 16

5.2. Gizli çəkilişlərin istifadəsi 17

5.3. İnformasiya mənbələrinin məxfiliyinin qorunması 18

**6. Mediada və ondan kənarda etik standartlar** 19

**7. Vətəndaş jurnalistlərinin rolu seçkilər və böhranlar zamanı** 20

**8. Vətəndaş jurnalistinin qarşılaşdığı çətinliklər** 24

**9. Vəkillik və inklüzivlik** 28

**10. Necə vətəndaş jurnalisti ola bilərik?** 30

**11. Faydalı resurslar** 31

**Tövsiyələr** 32

**Nəticə** 34

**İstifadə olunmuş mənbələr** 35

# GIRIŞ

Bu bələdçinin məqsədi Gürcüstanda vətəndaş jurnalistikasının populyarlaşdırılması yolu ilə vətəndaşların demokratik proseslərə iştirakını artırmaq, vətəndaş jurnalistlərinin fəaliyyətini və onların rolunu gücləndirməkdir.

Gürcüstanda dezinformasiyaya qarşı mübarizənin ön cəbhəsində müstəqil jurnalistlər və aktiv vətəndaşlar dayanır, xüsusilə seçkilər və siyasi böhranlar zamanı. Texnoloji inkişaf və sosial medianın imkanlarının genişlənməsi ilə vətəndaşlar hər gün böhran vəziyyətləri haqqında məlumatların araşdırılması və yayılmasında fəal iştirak edirlər. Buna görə də, bu prosesi daha effektiv etmək və vətəndaş jurnalistlərinin ənənəvi və onlayn media ilə əməkdaşlığını dəstəkləmək üçün müvafiq alət və resursların yaradılması vacibdir.

Bu bələdçi yerli və beynəlxalq təcrübəyə əsaslanır, etik və hüquqi standartları nəzərə alaraq praktiki nümunələr və tövsiyələr təqdim edir. O, aktiv vətəndaşlar və media nümayəndələri üçün nəzərdə tutulmuşdur və geniş auditoriya üçün də maraqlı ola bilər.

Bu resurs ingilis, erməni və Azərbaycan dillərinə tərcümə edilmiş və “MediaSəs”in rəsmi veb-saytında əlçatan olmuşdur: www.mediavoice.ge.

# 1. VƏTƏNDAŞ JURNALISTIKASININ ROLU VƏ MƏQSƏDI

Vətəndaşların media məzmununun hazırlanmasına cəlb olunması getdikcə artır. Nobel mükafatı laureatı, Filippindəki “Rappler” mediasının təsisçisi Mariya Ressa, “Diktatoru necə məğlub etməli” (2022, s. 131) kitabında vətəndaş jurnalistikasının texnologiyaların daha yaxşı dəyişikliklər üçün necə istifadə olunmasının yaxşı nümunəsi olduğunu qeyd edir və mobil telefonlarla silahlanmış vətəndaşları təsvir edir ki, onlar ədalət və hesabatlılıq tələb etmək hüququna malikdirlər.

Rahatlıqla deyə bilərik ki, jurnalistika peşə kimi formalaşmazdan əvvəl, əlində olan resurslarla məlumat yayan aktiv vətəndaşlar mövcud idi. Hətta belə demək olar ki, əvvəlcə “vətəndaş jurnalistləri” meydana çıxdı, daha sonra isə peşəkar jurnalistlər formalaşdı.

Texnoloji inkişaf, internet və sosial şəbəkələr cəmiyyət həyatında bir çox şeyi dəyişdi, jurnalistika da istisna deyil. Rəqəmsal savadlılığın və smartfon istifadəsinin artması fonunda informasiya əldə etmək və yaymaq prosesi xeyli asanlaşdı. Bu da ənənəvi media və peşəkar jurnalistlərlə yanaşı, alternativ medianın bir forması kimi «vətəndaş jurnalistikası»nın inkişafına səbəb oldu.

**Vətəndaş jurnalistikası və vətəndaş jurnalistlər media ekosisteminin mühüm bir hissəsinə çevrilib. Vətəndaşlar artıq informasiyanı özləri əldə edə, məzmun yarada və müxtəlif platformalarda yayımlaya bilərlər.**

Vətəndaş jurnalistikası auditoriyanın iştirakını artırır və bununla da informasiyanın sərbəst dövriyyəsinə və medianın demokratikləşməsinə töhfə verir.

# 2. VƏTƏNDAŞ JURNALISTLƏRI KIMLƏRDIR?

Vətəndaş jurnalistləri müxtəlif peşə sahibləri olan şəxslərdir (fərqli sahələrdə çalışan və ya işsiz şəxslər), hansı ki, müstəqil şəkildə, öz resursları ilə aktual məzmun yaradır və yayımlayırlar.

**«Britannica» ensiklopediyasına görə, vətəndaş jurnalistikası peşəkar jurnalistlər tərəfindən həyata keçirilmir.**

Vətəndaş jurnalistləri mediada çalışmayan və peşəkar təhsilə malik olmayan şəxslər ola bilər. Onların yaratdığı məzmun müxtəlif vebsaytlar, bloqlar və sosial media vasitəsilə yayılır.

Vətəndaş jurnalistləri xüsusilə, medianın tam şəkildə fəaliyyət göstərə bilmədiyi yerlərdə mühüm rol oynayırlar. Bu, müharibə vəziyyəti, təbii fəlakətlər, nümayişlər və ya seçkilər zamanı baş verə bilər.Hadisə yerinə gedərək, vətəndaş jurnalisti operativ şəkildə informasiya əldə edib yayımlaya bilər. Beləliklə, vətəndaş özü “xəbər müxbiri”nə çevrilə bilər, sosial şəbəkə platformasında məlumat, audio-vizual material (o cümlədən, canlı yayımla sinxron şəkildə) paylaşa bilər.

Vətəndaş jurnalistlərinin fəaliyyəti xüsusilə seçkilər, siyasi hadisələr, lokal və qlobal böhranlar zamanı aktuallaşır. Onların rolu, ənənəvi mediada kifayət qədər işıqlandırılmayan mövzuların təqdim edilməsində mühüm əhəmiyyət daşıyır. Vətəndaşların bu cür iştirakı, bəzən əsas mediada yayılan narrativlərə alternativ perspektiv təqdim etmək üçün də ortaya çıxır.

Vətəndaş jurnalistinin çəkdiyi materialın informasiya dəyəri və xəbər məzmunu olmalıdır. Buna görə, təkcə kimsənin mobil telefonla video çəkməsi və onu şəxsi sosial media səhifəsində paylaşması həmin şəxsi vətəndaş jurnalisti etmir.

“Vətəndaş jurnalistikası” termini bu günədək müzakirə mövzusudur.Ədəbiyyatda bu anlayış “iştirakçı jurnalistika” («participatory journalism») və ya “baza səviyyəli jurnalistika” («grassroots journalism») kimi də rast gəlinir. Bu terminlər təsadüfi seçilməyib. Vətəndaş jurnalistləri peşəkar çərçivələrlə məhdudlaşdırılmır və məhz bu cür sərbəst formatda məzmun yaradaraq müxtəlif sosial rolları öz üzərlərinə götürürlər.

## 2.1. VƏTƏNDAŞ JURNALISTLƏRININ KATEQORIYALARI

Vətəndaş jurnalistlərinin müxtəlif kateqoriyaları mövcuddur. Lakin biz yalnız bir neçəsini vurğulayacağıq. Vətəndaş Jurnalistlərinin Milli Assosiasiyasının bələdçisində müəlliflər (Rossi və Cormier, 2010) üç kateqoriyanı fərqləndirirlər:

1. Təsadüfi vətəndaş jurnalisti;
2. Müdafiəçi (advocacy) vətəndaş jurnalisti;
3. Vətəndaş jurnalisti.

**Təsadüfi vətəndaş jurnalisti** – bu, hadisələrin episentrində gözlənilmədən olan və baş verən hadisəni qeydə alaraq onu hər hansı sosial şəbəkədə və ya platformada paylaşan şəxsdir. Təsadüfi vətəndaş jurnalistləri daha çox audio-video və foto məzmun yaratmağa üstünlük verirlər. Mətn məzmunu isə materialın giriş hissəsi kimi təqdim oluna bilər. (Beynəlxalq ictimaiyyətdə hələ də bu mövzu ətrafında mübahisələr var: hadisələri təsadüfən qeydə alan şəxsə vətəndaş jurnalisti adlandırmaq olarmı?)

**Müdafiəçi (advocacy) vətəndaş jurnalisti** – bu, müəyyən sosial, siyasi, dini və ya digər baxışları paylaşan və müdafiə edən insandır. Bu halda vətəndaş jurnalistinin mövqeyi və meyli tam şəffaf və aydındır. Belə fəaliyyət **advokasiya jurnalistikası** (advocacy journalism) və **həmrəylik jurnalistikası** (solidarity journalism) istiqamətləri ilə uyğun gəlir.

**Vətəndaş jurnalisti** – bu, öz təşəbbüsü ilə xəbər yayan və ya hər hansı hadisə barədə öz fikrini bildirən şəxsdir. Bu, xalq haqqında, xalq üçün, xalq tərəfindən yaradılmış xəbərlərdir. Vətəndaş jurnalistləri müstəqil və azad vətəndaş reportyorlardır. Onlar jurnalistikanın ənənəvi yanaşmaları ilə məhdudlaşdırılmır və redaksiya nəzarəti olmadan fəaliyyət göstərirlər.

Vətəndaş jurnalistləri xəbərləri toplayır, işləyir, araşdırır, işıqlandırır, təhlil edir və yayımlayırlar. Bütün bunları internetin əlçatan etdiyi müxtəlif texnologiyalardan istifadə edərək həyata keçirirlər. **Miller (2019)** vətəndaş jurnalistikasını dörd kateqoriyaya ayırır:

- **İştirakçı (participatory) vətəndaş jurnalisti**
- **Para (para) vətəndaş jurnalisti**
- **Xəbər mediasına nəzarət edən (news media watchdog) vətəndaş jurnalisti**
- **İcma (community) vətəndaş jurnalisti**

**İştirakçı (participatory) vətəndaş jurnalisti** – bu, ənənəvi medianın xəbər, rəy və informasiya məzmununun yaradılmasına töhfə verən şəxsdir. **Miller (2019) Alanı (2017)** sitat gətirərək vurğulayır ki, 2005-ci ildə Londonda baş verən partlayışlardan sonra vətəndaş jurnalistlər bir neçə saat ərzində **100 foto, 20 video və 4000 mətn mesajı** mediaya təqdim etmişdilər. Onlar hadisənin birbaşa şahidləri idilər və media qurumları onların materiallarından istifadə etdilər, çünki həmin anda kifayət qədər resursları və ya hadisə yerinə çıxış imkanları yox idi (**Alan, 2007**).

**Para (para) vətəndaş jurnalisti** – bu, xüsusilə etiraz aksiyalarını işıqlandırarkən aktivləşən şəxslərdir. **Para-jurnalistlər** "təsadüfən jurnalistikaya qoşulanlar" kimi xarakterizə olunur (**Larik, 2003, s. 71**). Onlar hadisələr haqqında xəbərlər, fikirlər və informasiyalar yaradaraq və yayaraq konkret mövzu ətrafında müvəqqəti birliklər formalaşdırırlar.

**Papacharissi (2015)** belə mühitin **"emosional xəbər axını"** olduğunu bildirir. O, bunu "subyektiv təcrübələrə, fikirlərə və emosiyalara əsaslanan, kollektiv şəkildə yaradılan xəbər konstruksiyası" kimi izah edir. Bu proses mövcud informasiya mühiti tərəfindən həm dəstəklənir, həm də təsdiqlənir (**s. 34**).

Bir çox ölkədə jurnalistlərin informasiya yaymasına məhdudiyyətlər qoyulur və bu, avtoritar rejimlərdə cəmiyyətə məlumat çatdırmağı çətinləşdirir. Belə şəraitdə vətəndaşlar mərkəzləşdirilməmiş kommunikasiya texnologiyalarından istifadə edərək məlumatlılığı artırır və dövlət nəzarətindən yayınırlar (Lotan və digərləri, 2011). Qeyd edildiyi kimi, bu cür vətəndaş jurnalistləri xüsusilə etiraz aksiyalarının işıqlandırılmasında fəal iştirak edirlər.

**Xəbər mediasına nəzarət edən (news media watchdog) vətəndaş jurnalisti**

Bu, mediada yayımlanan xəbərləri yoxlayan və tənqid edən, eləcə də medianın fəaliyyətini və nailiyyətlərini qiymətləndirən vətəndaş jurnalistidir.

**İcma (community) vətəndaş jurnalisti**

Bu jurnalistlər yerli mövzulara və ya xüsusi sahələrə fokuslanırlar**,** hansı ki, peşəkar jurnalistlər tərəfindən adətən diqqətdən kənarda qalır (**Johnson & St. John, 2017; Wolly, 2015**). Onlar cəmiyyət yönümlü jurnalistlərdir və ənənəvi mediada mövcud olan informasiya boşluğunu doldurmaq və/və ya vətəndaş iştirakını təşviq etmək məqsədi ilə xəbər yayırlar (**Metzgar və digərləri, 2011**).

İcma vətəndaş jurnalisti redaksiya filtrlərini (gatekeeping) özü formalaşdırır **– yəni,** informasiya seçimi və onun nəşrinə qədər olan bütün prosesləri özü idarə edir, ənənəvi jurnalistlər bu prosesə müdaxilə etmirlər**.**

## 2.2. VƏTƏNDAŞ JURNALISTI VƏ PEŞƏKAR JURNALIST

Biz tez-tez görürük ki, vətəndaşlar mobil telefonları ilə hadisələrin episentrində baş verənləri qeydə alırlar**.** Onlar nə peşəkar jurnalistlərdir, nə də onların rəqibləri**.** Fərqli peşələrə sahib vətəndaşlar sadəcə olaraq düzgün informasiyanın yayılmasının gücünü anlayırlar **və** hadisələri qeydə almaq onlarda bir vərdişə çevrilib**.**

### ▶ Vətəndaş jurnalisti və peşəkar jurnalist arasındakı fərqlər

Peşəkar jurnalistdən fərqli olaraq, vətəndaş jurnalisti hadisənin birbaşa iştirakçısı ola bilər və onu işıqlandıra bilər**.** Bu baxımdan, o, peşəkar jurnalistikanın "qırmızı xəttini" keçir **–** çünki peşəkar jurnalist müşahidəçidirsə, vətəndaş jurnalisti hadisələri öz baxış bucağından təsvir edə bilər**.**

Bu fərqlər informasiya əldə etmə, işləmə və yayma proseslərində müxtəlif aspektlərdə özünü göstərir və bu xüsusiyyətlər Cədvəl N1**-**də əks olunmuşdur.

**Cədvəl 1: Peşəkar Jurnalist və Vətəndaş Jurnalistinin Fərqləri**

| Xüsusiyyətlər | Peşəkar Jurnalist | Vətəndaş Jurnalisti |
|---|---|---|
| **Peşəkar təhsil və ixtisas.** | Əksər hallarda təhsil və/ və ya peşəkar hazırlıq jurnalistika və ya kommunikasiya sahəsində alınır. | Çox vaxt jurnalistika üzrə təhsili və/və ya mediada iş təcrübəsi olmur. |
| **Standartlar və etika.** | Peşəkar və etik standartlara uyğun fəaliyyət göstərir. | Rəsmi olaraq peşəkar jurnalistika etikası standartları ilə məhdudlaşdırılmır. |
| **Mənbələrin Yoxlanması və istifadə edilməsi** | Tez-tez rəsmi mənbələrdən istifadə edir və məlumatı yoxlamaq məcburiyyətindədir. | Hadisələrin şahidlərinin söylədiklərinə, hekayələrə və ya sosial şəbəkələrdə yayılan məlumatlara əsaslanır ki, bu da həmişə yoxlanılmış olmaya bilər. |
| **İş yeri və maliyyələşdirmə.** | Mediada çalışır, burada maaşı, iş yeri və digər resursları var. | Rəsmi olaraq mediada işləmir, məzmunu könüllü və ictimai əsaslarla yaradır. |
| **Şəxsi brendinq, afiliasiya** | Redaksiya siyasətinə malik olan media təşkilatının adından fəaliyyət göstərir, şirkət və onun rəhbərliyi qarşısında hesabat verir. | Media ilə əlaqəsi yoxdur. Məlumatı öz adı ilə və öz platformalarında yayımlayır. |

## ▶ Vətəndaş jurnalisti və peşəkar jurnalistin nəyi ortaqdır?

Vətəndaş və peşəkar jurnalistlərin ortaq xüsusiyyətləri var. Xüsusilə:

» Hər ikisi cəmiyyəti cari hadisələr və məsələlər haqqında məlumatlandırmağı hədəfləyir.

» Dəyərli bir məhsul yaratmaq üçün material informativ olmalı, jurnalist narrativ elementlərini, reportaj və/və ya vizual izahı, şərhləri və digər komponentləri əhatə etməlidir. Buna görə də istənilən **CANLI (LIVE) bağlantı vətəndaş jurnalistikası hesab edilmir**.

» Hər ikisi məlumat toplamaq, işləmək və yaymaq üçün müxtəlif metod və platformalardan istifadə edir.

» Hər ikisi informasiyanı yaymaq üçün video, audio, foto və mətn materiallarından istifadə edir.

**Jurnalistlər kimi vətəndaşlar da “Doorstepping” metodundan istifadə edirlər**.

**Doorstepping** – bu, jurnalistlərin planlaşdırılmamış şəkildə respondentlərlə birbaşa əlaqə quraraq, onları gözlənilmədən suallarla qarşı-qarşıya qoymasıdır. Bu metod, cəmiyyət üçün vacib məlumatların əldə edilməsi və operativ reaksiyanın təmin olunması məqsədilə tətbiq olunur.

Peşəkar jurnalistlər üçün bu, adətən planlaşdırılmış və strateji şəkildə idarə olunan bir prosesdir və redaksiya standartlarına əsaslanır.

Vətəndaş jurnalistləri də tez-tez **doorstepping** metodundan istifadə edirlər, çünki onlar bəzən təsadüfən mühüm hadisələrin episentrində olurlar, ictimai şəxslərlə qarşılaşırlar və bu zaman **impulsiv olaraq** onlardan informasiya almağa çalışırlar.

Fərqlər və oxşarlıqlar göstərir ki, peşəkar və vətəndaş jurnalistlərinin rolu informasiya dövriyyəsində mühüm əhəmiyyət kəsb edir. Lakin onların iş üslubu, gündəlik fəaliyyəti, məsuliyyətləri və resursları fərqlidir.

## 2.3. VƏTƏNDAŞ JURNALISTI VƏ IFŞAÇI (WHISTLEBLOWER)

**İfşaçı (Whistleblower)** – bu, təşkilat daxilində baş verən pozuntuları aşkar edən və qeyri-etik davranışlar barədə ictimaiyyəti məlumatlandıran şəxsdir. Təhlükəsizlik səbəbilə o, çox vaxt anonim fəaliyyət göstərir.

### ▶ İfşaçı ilə vətəndaş jurnalisti arasındakı fərq nədir?

Həm ifşaçılar, həm də vətəndaş jurnalistləri şəffaflığın və ədalətin təmin olunmasında mühüm rol oynasalar da, onların funksiyaları, fəaliyyət miqyası və yanaşmaları fərqlənir**.** Bu fərqlər **Cədvəl N2**-də əks olunmuşdur.

**Cədvəl N2: İfşaçılar (Whistleblower) və vətəndaş jurnalistlərin müqayisəsi**

| Xüsusiyyətlər | İfşaçı (Whistleblower) | Vətəndaş jurnalisti |
|---|---|---|
| **Fəaliyyət konteksti və miqyası** | Korrupsiya, cinayət və ya təhlükələr kontekstində təşkilati səviyyədə fəaliyyət göstərir. Adətən, təşkilat daxilində mövcud olan məlumata əsaslanır. | Cəmiyyət üçün əhəmiyyətli hadisələri ictimailəşdirir. Bu, küçədə çəkilmiş videolar, seçki prosesinin müşahidəsi, böhranların sənədləşdirilməsi və s. ola bilər. |
| **Çağırışlar (Çətinliklər)** | Çox vaxt hüquqi müdafiəyə ehtiyac duyur; fəaliyyəti təhlükəsizlik riskləri, o cümlədən qisas təhlükəsi daşıyır. | Dezinformasiyanın yayılması ehtimalı var; fəaliyyəti müəyyən təhlükəsizlik riskləri daşıya bilər. |
| **Resurslar və alətlər** | Təşkilatın daxili sənədləri, sübutlar və/və ya məxfi məlumatlar, hansı ki, mediaya ötürülə və ya başqa yollarla ictimaiyyətə açıqlana bilər. | Hadisə yerində toplanmış videolar və fotolar, hansı ki, sosial şəbəkələr və smartfonlar vasitəsilə yayıla bilər. |

Göründüyü kimi, ifşaçılar (Whistleblower) və vətəndaş jurnalistləri hər ikisi ədalət və şəffaflığın təmin olunmasında mühüm rol oynayırlar[1].

[1] Əlavə məlumat üçün baxın: *Whistleblowers, 2018, Council of Europe, Thematic factsheet,, 2018.* Əldə edilə bilər: https://rm.coe.int/factsheet-on-whistleblowers-14june2018/16808b3531 *(Son baxış tarixi: 20.01.2025)*

# 3. VƏTƏNDAŞ JURNALISTLƏRINDƏN YEDDI HEKAYƏ

Texnologiyaların inkişafı ilə vətəndaş jurnalistikası da sürətlə irəliləyir. Artıq bu sahənin perspektivliyini sübut edən bir sıra nümunələr mövcuddur. Səs-küylü hadisələrə cinayətlər, təbii fəlakətlər, terror aktları, siyasi böhranlar, inqilablar və digər mühüm proseslər daxildir.

**İlk uğurlu nümunə:** 2000-ci ildə Cənubi Koreyada onlayn sahibkar Oh Yeon-ho **bəyan etdi ki,** «Hər bir vətəndaş jurnalistdir»**.** O, Cənubi Koreyanın ənənəvi mediasından narazı idi və üç həmkarı ilə birlikdə gündəlik onlayn qəzet yaratmağa qərar verdi**.**

Onun peşəkar jurnalistləri işə götürmək və qəzet çap etdirmək üçün kifayət qədər maliyyə vəsaiti yox idi. Buna görə də könüllülərlə birlikdə «OhmyNews» adlı veb sayt qurdu**.**

Bu platforma fəaliyyətə **727 vətəndaş jurnalisti** ilə başladı və əvvəlcə yalnız bir ölkədə işləyirdi. 2007-ci ilə qədər isə 100 ölkədə 50,000 töhfə verən reportyoru birləşdirdi.

**«Rappler» kampaniyası (Filippin, 10 may 2010)**

Filippinli jurnalist və Nobel mükafatı laureatı Maria Ressa tərəfindən təsis edilmiş **«Rappler»** media platformasında 2010-cu il 10 may seçkiləri günü 90 min vətəndaş jurnalisti qeydiyyatdan keçmişdi.

Maria Ressa öz kitabında qeyd edir ki, **Filippində vətəndaş jurnalistlərinin fəaliyyəti cinayətlərin qarşısını almaqda təsirli rol oynayırdı.**

**Maria Ressa-nın sözlərinə görə:**

> “...Vətəndaş jurnalistləri tez-tez korrupsiya, rüşvətxorluq, seçki zorakılığı, müdaxilələr və digər qanun pozuntularını ifşa edirdilər. Onların fəaliyyəti gündəm yaratdı – müxtəlif namizədlər və onların tərəfdarları artıq seçki məcəlləsini bu qədər asanlıqla poza bilmirdilər. Hər kəs, kimdə mobil telefon vardısa, bu anları çəkə bilərdi və sonra bu faktlar ABS-CBN kanalında yayımlanırdı.” (səh. 131)

**Corc Floyd işi (ABŞ, 25 may 2020): 17 yaşlı Darnella Frazier** ABŞ-da küçədə **Corc Floydun qətlə yetirilməsini telefonla çəkdi**. Gənc qadın, polis tərəfindən qeyri-insani rəftara məruz qalan qaradərili bir kişinin saxlanılmasına şahid oldu.

Əgər bu **10 dəqiqəlik video** olmasaydı, cəmiyyət gerçək mənzərəni görə bilməzdi. Videonun yayılmasından sonra genişmiqyaslı etirazlar başladı, **polis məsuliyyətə cəlb edildi və günahkar sayıldı**. Bu görüntülər məhkəmədə də **sübut kimi istifadə olundu**.

Darnella Frazier peşəkar jurnalist olmasa da, 2021-ci ildə **Pulitzer Mükafatı Şurası** tərəfindən **xüsusi mükafata layiq görüldü**. Mükafatın həmtəsisçisi **Mindy Marquez** mükafatlandırma mərasimində dedi:

**“Floydun hekayəsi yalnız jurnalistlərin əsas rolunu vurğulamaqla kifayətlənmir, həm də adi vətəndaşların həqiqət və ədalətin qorunmasında artan rolunu göstərir.”**

**Tahrir Meydanı etirazları (Misir, 2011): "Ərəb baharı"** zamanı vətəndaş jurnalistlər və aktivistlər **Twitter və Facebook** kimi sosial media platformalarında ənənəvi media tərəfindən bloklanan etirazlar barədə məlumatlar yaydılar**.**

Sosial şəbəkələrdə geniş yayılan videolar və fotolar**,** beynəlxalq media üçün əsas məlumat mənbəyinə çevrildi**.** ***(Mənbə: BBC News)***.

**Boston Marafonu faciəsi (2013): 2013-cü il 15 aprel** tarixində Boston Marafonu zamanı baş verən partlayış ağır terror hücumu idi. Finiş xəttinin yaxınlığında iki ədəd əl istehsalı bomba partladı**,** nəticədə 3 nəfər həyatını itirdi, 260-dan çox insan yaralandı**.**

**FBI** analitikləri araşdırma zamanı təkcə marafon ərazisindəki müşahidə kameralarını deyil, həm də tamaşaçılar tərəfindən telefonla çəkilmiş foto və videoları da diqqətlə təhlil etdilər**.** Bu görüntülərin sayəsində iki şübhəlinin kimliyi müəyyən edildi**.** Hakimiyyət onların fotolarını ictimaiyyətə yaydı və kimliklərinin müəyyən edilməsi üçün vətəndaşlardan kömək istədi**.** Bu fotolar geniş yayıldı və cəmiyyətdən çoxsaylı məlumatlar daxil oldu**,** nəticədə şübhəlilərin tapılmasına mühüm töhfə verildi.

**Tbilisidə sel fəlakəti (Gürcüstan, 13 iyun 2015):** Bu təbii fəlakət Gürcüstanın müasir tarixində ən genişmiqyaslı hadisələrdən biri hesab olunur. 13 iyun gecəsi Tbilisidə Vere çayının daşması nəticəsində 21 nəfər həlak oldu, 2 nəfər itkin düşdü və yüzlərlə insan zərər çəkdi.

Fəlakət nəticəsində Tbilisi zooparkı da ciddi ziyan gördü – bəzi heyvanlar suda boğuldu**,** bəziləri isə şəhərə qaçdı**.**

Hadisə ilə bağlı görüntülər sosial şəbəkələrdə yayıldı və bir çox insan bu faciə haqqında ilk dəfə məhz sosial mediadan xəbər tutdu**.** Şahidlər hadisə yerindən videolar və fotolar çəkib paylaşırdılar, bu isə **cəmiyyətdə həmrəylik hissini gücləndirdi**. İnsanlar zərərçəkənlərə kömək etmək və fəlakət zonasını təmizləmək üçün könüllü fəaliyyətlərə qoşuldular. Eyni zamanda, vətəndaşlar şəhərdə vəhşi heyvanların səslərinin eşidildiyini bildirən materiallar paylaşırdılar**.** Doğrudur, bəzi videolar saxta çıxdı, bəzilərində isə heyvan səsləri ümumiyyətlə yox idi**, lakin vətəndaşların fəallığı** və ehtiyatlı davranışı ümumi prosesi müsbət yöndə təsir etdi**.**

**Post-seçki kampaniyası #MənSaxtakarlıqGördüm (Gürcüstan, 2024-cü il parlament seçkiləri sonrası):** Gürcüstanda 2024-cü il parlament seçkilərindən sonra sosial şəbəkələrdə vətəndaşlar arasında xüsusi kampaniya başladı. Kampaniya insanları seçki zamanı şahid olduqları qanun pozuntularını paylaşmağa təşviq edirdi. Vətəndaşlar **"#MənSaxtakarlıqGördüm"** həştəqi ilə əldə etdikləri sübutları paylaşmağa başladılar. Bu üsulla toplanan çoxsaylı materiallar qeyri-hökumət təşkilatları tərəfindən seçki saxtakarlığının sübutu kimi təqdim edildi.

# 4. MEDIANIN VƏ VƏTƏNDAŞ JURNALISTLƏRININ ƏMƏKDAŞLIĞI

Vətəndaş jurnalistləri seçkilər və böhranlar zamanı medianın xilasedici halqası rolunu oynayırlar. Peşəkar medianın çata bilmədiyi yerlərdə vətəndaş müşahidəçiləri və vətəndaş jurnalistləri mühüm rol oynayaraq “keşikçi itlər” (“Watchdogs”) funksiyasını yerinə yetirirlər.

Onlar media qurumlarında işləməsələr də, smartfonlardan istifadə edərək video və foto çəkə, müxtəlif sosial platformalarda canlı yayıma qoşula və vacib hadisələri ictimaiyyətə çatdıra bilərlər.

Vətəndaş jurnalistləri dolayı yolla və müxtəlif formalarda media qurumları ilə “əməkdaşlıq” edə bilərlər.

**Əgər vətəndaş jurnalisti tərəfindən çəkilmiş material bir media orqanı tərəfindən yayımlanırsa, o, redaksiya yoxlamasından keçir və beləliklə, media qurumu dolayısı ilə vətəndaş jurnalistinə institusional dəstək vermiş olur. Bu əməkdaşlıq peşəkar və/və ya məhkəmə çəkişmələri zamanı da genişlənə bilər.**

Bu cür əməkdaşlıq xüsusilə gizli çəkilmiş materialların yayılması və ya mənbənin məxfiliyinin qorunması baxımından faydalı ola bilər. Çünki vətəndaş jurnalistləri peşəkar jurnalistlərin malik olduğu hüquqi qoruma mexanizmlərindən yararlana bilmirlər.

# 5. QANUNVERICILIK VƏ MƏHKƏMƏ TƏCRÜBƏSI

Vətəndaş jurnalistləri ilə peşəkar jurnalistlər arasındakı fərq çox vaxt onların hüquq və məsuliyyətlərinin sərhədləri ilə müəyyən edilir ki, bu da qanunvericilikdə və məhkəmə presedentlərində əksini tapır. Beynəlxalq və yerli hüquqi kontekstdə ifadə azadlığını və media azadlığını təmin etmək üçün vacib sənədlər bunlardır[2]:

» **İnsan Hüquqları üzrə Ümumdünya Bəyannaməsi** – 19-cu maddədə deyilir: *"Hər kəsin fikir və ifadə azadlığı hüququ vardır. Bu azadlıq insanın öz fikrinə sahib olmaq, maneəsiz şəkildə informasiya və ideyaları axtarmaq, əldə etmək və yaymaq hüququnu əhatə edir – istənilən vasitə ilə və sərhədlərdən asılı olmayaraq."*

» **Birləşmiş Millətlər Təşkilatının Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktı (ICCPR)** – 19-cu maddə ifadə azadlığını təmin edir ki, bu azadlıq hər kəsi, o cümlədən vətəndaş jurnalistlərini də əhatə edir.

» **İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi haqqında Avropa Konvensiyası (ECHR)** – 10-cu maddə ifadə azadlığını və redaksiya fəaliyyətini qoruyur ki, bu da həm peşəkar, həm də vətəndaş jurnalistlərinə şamil edilir.

**Gürcüstan qanunvericiliyi vətəndaş jurnalisti və peşəkar jurnalist statusunu açıq şəkildə fərqləndirmir, lakin bəzi tənzimləmələr peşə standartlarını və akkreditasiya olunmuş jurnalistlərin hüquq və vəzifələrini nəzərdə tutur.**

» **Gürcüstan Konstitusiyası, Söz və İfadə Azadlığı haqqında Qanun, Mətbuat və Digər Kütləvi İnformasiya Vasitələri haqqında Qanun** – jurnalistlərin hüquqları və müdafiəsi açıq şəkildə müəyyən edilib. Bu, onların mənbələrini qorumaq və informasiyaya çıxışını təmin etmək hüququnu da əhatə edir. Vətəndaş jurnalistləri bu qanunda xüsusi olaraq nəzərə alınmır, lakin ifadə azadlığı Konstitusiyanın 17-ci maddəsi ilə təmin edilir.

» **"Televiziya Yayımı haqqında" Gürcüstan Qanunu** – məqsədi dövlət müdaxiləsindən azad olan ictimai yayım sisteminin yaradılması və media sahəsinin ədalətlilik, qərəzsizlik və şəffaflıq prinsipləri əsasında tənzimlənməsidir. Qanun ifadə azadlığını təmin edir, media xidmətləri təminatçıları arasında rəqabəti və bərabərliyi təşviq edir.

» **Gürcüstanın Seçki Məcəlləsi** – seçki prosesinin işıqlandırılması üçün mətbuat və digər kütləvi informasiya vasitələrinin akkreditasiyasını tələb edir. Bu prosedur vətəndaş jurnalistlərinə şamil edilmir.

---

[2] Jurnalistlərin təhlükəsizliyi və ifadə azadlığı ilə bağlı əsas mətnlər, bəyannamələr, qərarlar, qətnamələr və konvensiyaların tam olmayan siyahısı ilə tanış olmaq üçün UNESCO-nun səhifəsinə baxın, mövcuddur: https://www.unesco.org/en/safety-journalists/basic-texts (Son baxış: 20.01.2025).

## 5.1. BEYNƏLXALQ VƏ YERLI MƏHKƏMƏ TƏCRÜBƏSI

Beynəlxalq səviyyədə vətəndaş jurnalistləri ilə peşəkar jurnalistlərin fəaliyyət sahələrinin kəsişdiyi maraqlı presedent qərarlar mövcuddur[3]. Aşağıda bu cür qərarlardan bir neçəsini təqdim edirik:

» **GLIK V. CUNNIFFE (ABŞ, 2011)** – Bu presedent ABŞ məhkəmələrinin vətəndaş jurnalistikası ilə bağlı ən məşhur qərarlarından biridir. 2016-cı ildə qəbul edilən qərara əsasən, məhkəmə vətəndaşlara ictimai məkanda polis fəaliyyətini videoçəkiliş etmək hüququ tanımışdır. Qərarda vurğulanmışdır ki, belə bir fəaliyyət üçün jurnalist statusuna malik olmaq tələb olunmur və bu hüquq **ABŞ Konstitusiyasının Birinci Düzəlişi** ilə qorunur.

» **OBERSCHLICK V. AUSTRIA (AİHM, 1997)** – Bu iş ifadə azadlığını jurnalistlər kontekstində nəzərdən keçirmiş və jurnalistikanın demokratiyanın qorunmasında mühüm rolunu vurğulamışdır. Hərçənd ki, qərarda vətəndaş jurnalistlərinin statusu ayrıca müzakirə olunmamışdır, lakin Avropa İnsan Haqları Konvensiyasının qoruma çərçivəsinin onlara da aid olduğu bildirilmişdir.

» **Magyar Helsinki Bizottság v. Hungary (AİHM, Böyük Palata, 2016)** – Məhkəmə bu işdə **Cengiz and Others v. Turkey (2015)** presedentinə əsaslanaraq bildirmişdir ki, ənənəvi media qurumları tərəfindən nəzərə alınmayan siyasi məzmunlu məlumatlar tez-tez müəyyən veb saytlar vasitəsilə yayımlanır və bu, **vətəndaş jurnalistikasının** inkişafına töhfə verir. Məhkəmə vurğulamışdır ki, müvafiq onlayn xidmətlərin bloklanması istifadəçiləri informasiyanı sərbəst əldə etmək və yaymaq imkanından məhrum edir**.**

Gürcüstan məhkəmələrində vətəndaş jurnalistləri ilə peşəkar jurnalistləri fərqləndirən presedent qərarlar mövcud deyil**.** Bununla belə, gizli çəkilişlərin istifadəsi və informasiya mənbələrinin məxfiliyinin qorunması ilə bağlı məhkəmə təcrübəsi maraq doğurur.

---

[3] ECHR-KS Key theme – Article 10 Contributions to public debate: Journalists and other actors, (Last updated:31/08/2024), Əlçatandır: https://ks.echr.coe.int/documents/d/echr-ks/contributions-to-public-debate-journalists-and-other-actors Avropa İnsan Haqları Məhkəməsinin (ECHR) sənədi, vətəndaş jurnalistlərin fəaliyyəti ilə bağlı izahatları ehtiva edir və onların ifadə azadlığı (Son baxış tarixi: 20.01.2025). Avropa İnsan Haqları Məhkəməsinin sənədi vətəndaş jurnalistlərin fəaliyyəti ilə bağlı izahatları ehtiva edir və onların ifadə azadlığı hüququnun qorunduğunu təsdiqləyir (ECHR-KS, 10-cu maddə).

## 5.2. GIZLI ÇƏKILIŞLƏRIN ISTIFADƏSI

**Vətəndaş jurnalistləri üçün gizli çəkilişlərin istifadəsi hüquqi risklər daşıya bilər, çünki məhkəmələr onların peşəkar statusunu rəsmi olaraq tanımır**.

Bu**,** gizli çəkilişlərin "ictimai maraq" baxımından əsaslandırılmasını çətinləşdirir. Peşəkar jurnalistlər üçün isə rəsmi jurnalist statusu və media təşkilatlarının dəstəyi əlavə müdafiə rolunu oynaya bilər. Belə hallarda məhkəmə, gizli çəkilişlərin qanun pozuntusu yaratmadığı və ictimai maraqlara xidmət etdiyi təqdirdə, onları sübut kimi qəbul edə bilər.

Bu xüsusiyyətlər **Cədvəl №3**-də əks olunmuşdur.

**Cədvəl №3: Gizli çəkilişlərin istifadəsi**

| Xüsusiyyətlər | Vətəndaş jurnalistləri | Peşəkar jurnalistlər |
|---|---|---|
| **Hüquqi status** | Peşəkar statusları tanınmır, bu da gizli çəkilişin «ictimai maraq» baxımından əsaslandırılmasını çətinləşdirir. | Peşəkar status və media təşkilatının dəstəyi əlavə müdafiə təmin edə bilər. |
| **İctimai marağın əsaslandırılması** | Hüquqi risklər yüksəkdir, çünki məhkəmədə gizli çəkilişin əsaslandırılması çətin ola bilər. | Məhkəmə gizli çəkilişi nəzərdən keçirə bilər, əgər o, ictimai maraqlara xidmət edirsə və qanunvericiliyi pozmursa. |
| **Sübut kimi istifadə** | Peşəkar statusun olmaması səbəbindən məhkəmədə gizli çəkilişin sübut kimi qəbul edilməsi çətin ola bilər. | Əgər qanun pozuntusu yaratmırsa və ictimai maraqlara xidmət edirsə, məhkəmə tərəfindən sübut kimi qəbul edilə bilər. |
| **Şəxsi məsuliyyət** | Hüquqi məsuliyyət tamamilə vətəndaş jurnalistlərin üzərinə düşür, çünki onların təşkilati dəstəyi yoxdur. | Media təşkilatları tərəfindən hüquqi yardım imkanları mövcuddur ki, bu da məsuliyyət riskini azaldır. |

## 5.3. İNFORMASIYA MƏNBƏLƏRININ MƏXFILIYININ QORUNMASI

Gürcüstanda **mənbələrin məxfiliyinin qorunması** informasiya azadlığının təmin olunması üçün mühüm mexanizmlərdən biridir. **Peşəkar jurnalistlər** bu hüquqdan daha geniş şəkildə faydalana bilirlər, xüsusilə də media təşkilatlarında rəsmi olaraq çalışırlarsa. **Vətəndaş jurnalistləri üçün isə bu daha çətin olur,** çünki onların peşəkar statusu rəsmi olaraq tanınmır**,** bu da mənbələrin məxfiliyini qorumaq hüququnun məhkəmələrdə tanınmasını çətinləşdirir.

Bu fərqlər **Cədvəl №3**-də əks olunmuşdur.

**Cədvəl №4: İnformasiya mənbələrinin məxfiliyinin qorunması**

| Xüsusiyyətlər | Peşəkar jurnalistlər | Vətəndaş jurnalistlər |
|---|---|---|
| **Hüquqi müdafiə** | Cinayət işlərində məlumat mənbələrini açıqlamaq məcburiyyətində deyil, peşə fəaliyyətinə görə qorunur. | Hüquqi qorunma çox nadirdir, çünki rəsmi jurnalist statusu yoxdur. Ancaq sıravi vətəndaş kimi bəzi hüquqları qorunur. |
| **Media dəstəyi** | İnstitusional dəstəyi və müdafiə mexanizmləri mövcuddur. | Dəstək və institusional müdafiəs**i** yoxdur**.** |
| **Mənbənin məhkəmədə qorunması** | Mənbə məxfiliyi qorunur, əgər məsələ dövlət təhlükəsizliyi və ya ağır cinayətlərlə bağlı deyilsə. | Mənbənin qorunması tələbi zəifdir, yəni vətəndaş jurnalistləri məhkəmədə mənbənin məxfiliyini qorumaqda çətinlik çəkə bilərlər. |

Gürcüstanda mənbələrin məxfiliyinin qorunması qanunvericiliklə təmin edilir və bu, söz və ifadə azadlığını müdafiə edir. Lakin vətəndaş jurnalistləri üçün bu qorunmanın effektivliyi zəifdir, çünki onların peşəkar statusu tanınmır və institusional dəstəkləri yoxdur.

**Bu baxımdan, media təşkilatları ilə vətəndaş jurnalistləri arasında əməkdaşlıq formatlarının inkişaf etdirilməsi daha da vacib olur**

.

# 6. MEDIADA VƏ ONDAN KƏNARDA ETIK STANDARTLAR

**Etik jurnalistika** cəmiyyətin məlumatlandırılması, plüralizmin, demokratik dəyərlərin və ədalətin təmin olunması üçün əsas mexanizmlərdən biridir. **Gürcüstan Jurnalist Etika Xartiyası** 2009-cu ildə yaradılmış və mediada etik fəaliyyət standartlarını müəyyən edən özünütənzimləmə qurumudur**.**

Xartiya, jurnalistlərin fəaliyyətini etik çərçivəyə salan 11 əsas prinsipi müəyyən edir. Bu prinsiplər media nümayəndələrini məlumatın toplanmasına, işlənməsinə və yayılmasına məsuliyyətlə yanaşmağa çağırır**.** Bu prinsiplər **vətəndaş jurnalistləri** üçün də dəyərli bir bələdçi rolunu oynayır, çünki onların fəaliyyəti cəmiyyətin məlumatlandırılmasına və demokratik proseslərə birbaşa təsir göstərir**.**

**Vətəndaş jurnalisti peşəkar jurnalistdən fərqli olaraq redaksiya filtri və bürokratiyadan azaddır.**

O, redaktor və ya prodüserlə məsləhətləşmədən hansı xəbəri yayacağını, hansı ardıcıllıqla təqdim edəcəyini, müsahibə üçün kimlərin seçiləcəyini, hansı mənbələrdən istifadə ediləcəyini, xəbərə nə qədər vaxt ayrılacağını, onun necə tərtib ediləcəyini və hansı platformada yayımlanacağını özü müəyyənləşdirir.

Lakin bu halda məsuliyyət də artır və o, media institutu deyil, birbaşa və tam şəkildə vətəndaş jurnalistinin öz üzərinə düşür. Bu faktor özünü həm senzuranın azalması, həm də əksinə, qorxu və güvənsizlik hissinin artması şəklində göstərə bilər.

**Etibarlılığın qazanılması həm peşəkar, həm də vətəndaş jurnalisti üçün vacibdir.** Təcrübədə təsdiqlənməmiş məlumatların yayılması ehtimalı mövcuddur. Vətəndaş jurnalistlərinin peşəkar jurnalist olmamaları səbəbindən, onlar jurnalistikanın əsas prinsiplərindən biri olan faktların yoxlanmasını gözdən qaçıra bilərlər.

Bu isə onların bilmədən dezinformasiyanın yayılmasına səbəb olmasına gətirib çıxara bilər. Belə hallarda vətəndaş jurnalistinin yanlış məlumat yayan şəxsə – dezinformatora çevrilmək riski artır və o, tədricən “spiralvari dezinformasiya” üçün münbit zəmin yarada bilər.

**Spiralvari və ya dövriyyəyə buraxılan dezinformasiya** – yanlış və ya yanıltıcı informasiyanın müəyyən informasiya mənbələri şəbəkəsində dövr etməsi və güclənməsidir. Bu hal, həmin informasiyanın etibarlı görünməsinə və geniş kütlə tərəfindən qəbul edilməsinə səbəb olur.

Bu prosesə media qurumları, sosial media platformaları və müxtəlif maraq qrupları daxil ola bilər. Eyni məlumatın təkrar-təkrar yayılması onu legitim və həqiqət kimi göstərir, bu isə onun təkzib olunmasını çətinləşdirir.

# 7. VƏTƏNDAŞ JURNALISTLƏRININ ROLU SEÇKILƏR VƏ BÖHRANLAR ZAMANI

Medianın seçiciləri məlumatlandırmaq və seçki prosesinin şəffaflığını təmin etmək baxımından mühüm rolu var. Eyni zamanda, media seçkilərdə iştirak edən tərəflərin hesabatlılığını artırmaqda da kritik əhəmiyyət daşıyır.

Seçkilərin işıqlandırılması və hadisələrin sənədləşdirilməsi həm media qurumları, həm də vətəndaş jurnalistləri tərəfindən aparılır. Bu proses təkcə seçki gününü deyil, həm də **seçkidən əvvəlki və sonrakı dövrləri** əhatə edir.

Vətəndaş jurnalistləri, xüsusilə, seçki pozuntularını sənədləşdirmək**,** cəmiyyətin seçki prosesinə reaksiyasını əks etdirmək**,** sosial mediada real vaxt rejimində məlumat paylaşmaq kimi məsələlərdə mühüm rol oynaya bilərlər.

Gürcüstanda 2024-cü il parlament seçkilərində ənənəvi və onlayn media üçün əsas çətinliklərdən biri seçki məntəqələrinə çıxış və informasiyanın operativ yayımı oldu. Ümumilikdə, Gürcüstanda 3 310 seçki məntəqəsi fəaliyyət göstərirdi ki, onlardan 67-si xaricdə yerləşirdi. Xüsusilə tənqidi, müstəqil və regional Gürcü media qurumları, bütün seçki məntəqələrində seçkiləri vaxtında işıqlandırmaq və lazımi informasiyaya çıxış əldə etmək baxımından kifayət qədər resurslara malik deyildi.

“MediaXma”nın 2024-cü il media mühiti araşdırmasına əsasən vətəndaş jurnalistlərinin seçkilərdə rolu

2024-cü il seçkiləri dövründə Gürcüstanın bütün regionlarında vətəndaş jurnalistləri ilə əməkdaşlıq təcrübəsi geniş yayıldı. Xüsusilə kiçik media qurumları üçün vətəndaş jurnalistləri boşluğu dolduran vacib bir mənbə rolunu oynadılar.

Onların real vaxt rejimində təqdim etdiyi məlumatlar təkcə ictimaiyyəti lazımi informasiyalarla təmin etmədi, eyni zamanda seçkilərin qiymətləndirilməsi üçün mühüm sübutlara çevrildi. Bu, “grassroots” medianın (yerli vətəndaşların iştirak etdiyi media) demokratiyanın qorunmasındakı gücünü bir daha vurğuladı.

**Siyasi qütbləşmə** və media üzərində tətbiq olunan hüquqi məhdudiyyətlər fonunda, vətəndaşlar seçicilərin qorxudulması, prosedur qaydalarının pozulması və mümkün saxtakarlıq hallarını qeydə alıb ictimailəşdirdilər. Bu, vətəndaş jurnalistikasının seçki prosesinin şəffaflığına töhfə verməsini və demokratiyanın qorunmasında rolunu bir daha göstərdi.

## Hüquqi kontekst: Vətəndaş jurnalisti nəyi bilməlidir?

Gürcüstan qanunvericiliyinə əsasən, foto və video çəkilişi müəyyən məhdudiyyətlərlə tənzimlənir. Media nümayəndələrinin seçki məntəqələrində cəmi 10 dəqiqə ərzində çəkiliş aparmaq hüququ var.

Qanunvericilik seçki məntəqələrində foto, video və digər elektron müşahidə avadanlıqlarının (kameralar, mobil telefonlar və s.) istifadəsini qadağan edir. Bu qaydalar seçicilərin məxfiliyini qorumaq və səsvermə prosesinin bütövlüyünü təmin etmək məqsədi daşıyır. Lakin praktikada bu məhdudiyyətlər müşahidəçilərin mümkün pozuntuları sənədləşdirmək imkanlarını məhdudlaşdırır və seçki prosesinin şəffaflığına təsir göstərə bilər. Vətəndaş jurnalistləri qanunvericiliyin bu tələblərini bilməli və fəaliyyətlərini ona uyğun qurmalıdırlar.

2024-cü il Gürcüstan seçkilərinin işıqlandırılması göstərdi ki, **“grassroots” (yerli vətəndaş)** jurnalistika ənənəvi medianın gözündən qaça biləcək hadisələri üzə çıxarmağa imkan verir. Bu, mümkün saxtakarlıqları və ya prosedur pozuntularını ifşa etməyə kömək edir. Bununla da, vətəndaş jurnalistikası daha şəffaf və ədalətli seçki mühitinin formalaşmasına töhfə verir.

**Sosial media** platformalarının sayəsində bu məlumat dərhal geniş auditoriyaya çatdırılır, müxtəlif baxışların nəzərə alınmasını təmin edir və cəmiyyətin məlumatlılıq səviyyəsini artırır. Xəbərlərin demokratikləşməsinin bu forması, eyni zamanda marginallaşmış və ya az təmsil olunan qruplara öz səsini duyurma imkanı verir, onların problemlərinin və mövqelərinin ictimaiyyətə çıxmasına şərait yaradır.

Vətəndaş jurnalistlərinin seçkilərin işıqlandırılmasında rolu əvəzolunmazdır. Lakin peşəkar jurnalistlərdən fərqli olaraq, seçki günü vətəndaş jurnalistləri media akkreditasiyası ala bilmir. Bu səbəbdən, onların hüquqları və imkanları məhduddur və seçki məntəqəsində və ondan kənarda fəaliyyətləri fərqli qaydalarla tənzimlənir. **Cədvəl №5**-də vətəndaş jurnalistlərinin seçki məntəqəsi daxilində və xaricində fəaliyyət göstərə biləcəyi çərçivələr ətraflı göstərilib.

**Cədvəl №5: Seçki məntəqəsində və onun xaricində vətəndaş və peşəkar jurnalistlərin fəaliyyəti**

| Xüsusiyyət | Vətəndaş jurnalisti | Peşəkar jurnalist |
|---|---|---|
| **Status və tənzimləmə** | Rəsmi statusa malik deyil və media qaydalarına tabe deyil. | Rəsmi statusa malikdir və media qaydalarına tabe olur. |
| **Akkreditasiya** | Seçki komissiyasına akkreditasiya üçün müraciət etmir; seçki məntəqəsinə giriş hüququ olmaya bilər. | Seçki komissiyasına akkreditasiya tələb olunur, bu da ona seçkiləri rəsmi şəkildə işıqlandırmaq hüququ verir. |
| **Seçki məntəqəsində iştirak hüququ** | Seçki məntəqəsində müntəzəm işləmək hüququ yoxdur və xüsusi status ala bilmir. | Akkreditasiya olduğu halda, seçki komissiyalarının iclaslarında iştirak edə və seçki günü bütün gün məntəqədə qala bilər. |
| **Video və foto çəkiliş hüququ** | İctimai yerlərdə çəkiliş edə bilər, lakin seçki məntəqələrində məhdudiyyətlər var. | Seçki günü xüsusi qaydalar çərçivəsində 10 dəqiqəlik çəkiliş hüququ var.<br>Gün ərzində yalnız seçki komissiyasının sədri tərəfindən müəyyən edilmiş xüsusi yerlərdən çəkiliş apara bilər.<br>Səsvermə kabinələrinin içini çəkmək qadağandır.<br>Müsahibə yalnız səsvermə binasının xaricində aparıla bilər. |

Akkreditasiya tələb olunmadan fəaliyyət göstərmək mümkün olan əsas yer seçki məntəqəsinin xarici perimetridir. Bu perimetr ən çox qanun pozuntularının baş verdiyi sahələrdən biridir – seçicilərə təzyiq, qanunsuz təşviqat, səslərin satın alınması və digər mümkün pozuntular burada baş verə bilər.

## Nələrə diqqət yetirmək lazımdır?

Seçki günü vətəndaş jurnalistləri aşağıdakı əsas qaydalara xüsusi diqqət yetirməlidirlər:

- Seçki məntəqəsinin girişindən 25 metr məsafədə təbliğat materiallarının yerləşdirilməsi qadağandır. Əgər belə materiallar aşkar edilərsə, onlar çıxarılmalı və ya sökülməlidir.
- Səsvermə günü seçki məntəqəsi daxilində və 100 metr məsafədə seçicilərin hərəkətinə mane olmaq qadağandır. Heç bir şəxs seçicilərin məntəqəyə daxil olmasına və ya oranı tərk etməsinə fiziki müdaxilə edə bilməz.
- Seçki məntəqəsindən 100 metr məsafədə insan qruplarının toplaşması və seçicilərin məlumatlarının qeydiyyata alınması qadağandır.

2024-cü il seçkilərində onlarla vətəndaş jurnalisti səhər saatlarından etibarən müxtəlif məntəqələrdə aktiv fəaliyyət göstərirdi. Onlar Meta/Facebook və digər sosial media platformaları vasitəsilə hadisələri operativ şəkildə paylaşırdılar, bu da seçki prosesinin sənədləşdirilməsində mühüm rol oynadı. Vətəndaş jurnalistlərinin qeydə aldığı bəzi kritik hallar seçki saxtakarlığı və pozuntuların aşkar edilməsində həlledici oldu.

Yerli və beynəlxalq müşahidəçilərin ilkin və yekun hesabatına görə, 2024-cü il parlament seçkilərində Gürcüstanda çoxsaylı pozuntular qeydə alınıb, bu hallar həm yerli, həm də beynəlxalq müşahidəçilər tərəfindən sənədləşdirilib. Əsas problemlər vətəndaş müşahidəçiləri və vətəndaş jurnalistləri tərəfindən çəkilmiş görüntülərdə də əks olunub.

Bir çox nümunə göstərir ki, vətəndaş jurnalistikası seçki prosesində mühüm rol oynayır, xüsusilə müasir texnoloji inkişaf şəraitində, qısa və dinamik videolar istifadəçilər üçün daha maraqlı və vacib olur. **Vətəndaş jurnalistikası şəffaflığın artırılmasına və demokratik iştirakçılığın gücləndirilməsinə həlledici töhfə verir**.

**Təbii fəlakətlər** zamanı vətəndaşlar sosial şəbəkələrdə operativ şəkildə hadisə yerindən videolar və yenilənmiş məlumatlar paylaşırlar. Bu cür fəaliyyət həm informasiya yaymaq, həm də təhlükəsizlik funksiyasını yerinə yetirmək baxımından əhəmiyyətlidir.

# 8. VƏTƏNDAŞ JURNALISTININ QARŞILAŞDIĞI ÇƏTINLIKLƏR

## ▶ Dezinformasiya və Süni İntellekt (AI)

Vətəndaş jurnalistlərinin əsas çağırışlarından biri dezinformasiya və onun yaratdığı təhlükələrdir**.**

**Vətəndaş jurnalistlərinin hazırladığı materiallar emosional və subyektiv ola bilər, çünki onlar hadisələri şəxsi baxış bucağından və iştirakçı kimi qəbul edirlər**. Bu isə **məlumatın təhrif olunmasına səbəb ola bilər**. Əgər **misinformasiya** (səhv məlumat) istəmədən yayıla bilirsə**, dezinformasiya** isə qəsdən və məqsədli şəkildə hazırlanmış, istifadəçilərin emosiyalarına təsir etməyə hesablanmış yanlış informasiyadır**.**

Süni intellektin (AI) imkanları və yeni texnologiyalar vasitəsilə yaradılmış **video, audio və foto** materiallar **dezinformasiyanın** sürətli yayılma riskini artırır. Bu, informasiya manipulyasiyası təhlükəsi yaradır və yayılan məzmunun müəllifinə hüquqi və peşəkar məsuliyyət yükləmir. Bu kontekstdə internet alqoritmlərinin təsiri də nəzərə alınmalıdır. Sosial media alqoritmləri emosional və qalmaqallı informasiyaların daha çox iştirakçılıq yaratması səbəbindən dezinformasiyanın yayılmasını gücləndirə bilər. Buna görə də, cəmiyyət arasında informasiya, media və rəqəmsal savadlılığın artırılması vacibdir, çünki bu, tənqidi düşüncənin inkişafına kömək edir.

## ▶ Müharibə vəziyyəti və informasiya təhlükəsizliyi

Silahlı münaqişə zonalarında çalışan **peşəkar və vətəndaş jurnalistlər** cəmiyyəti məlumatlandırmaq üçün öz həyatlarını təhlükəyə atırlar.

**Media və vətəndaş jurnalistləri** ifadə azadlığı hüququndan məsuliyyətlə istifadə etməlidirlər və silahlı münaqişələri işıqlandırarkən xüsusi ehtiyatlılıq göstərməlidirlər. Onlar ictimaiyyətə dəqiq və etibarlı informasiya təqdim etməlidirlər**.**

<u>**«Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt» (ICCPR)**</u>-ın **20-ci maddəsinə** əsasən:

» Müharibə təbliğatı qanunla qadağandır.

» Millət, irq və ya din əsaslı nifrət təbliğatı və bunun nəticəsində yaranan diskriminasiya, düşmənçilik və ya zorakılığa çağırış qanunla qadağan edilir.

<u>**Müharibə vəziyyətində**</u> vətəndaş jurnalistikası kollektiv və ictimai yaddaşı formalaşdırır. Rusiyanın Ukraynaya müdaxiləsi başladığı gündən etibarən vətəndaş jurnalistikası vasitəsilə müharibə haqqında redaktəsiz, senzurasız və "bulanıqlaşdırılmamış" görüntülərdən ibarət arxiv yaradıldı.

Müharibə və silahlı münaqişələr zamanı vətəndaş jurnalistlərinin rolu və iştirakçılığı xüsusilə artır. Vətəndaşlar təsadüfi və spontan şəkildə jurnalistin rolunu öz üzərlərinə götürə bilərlər. Lakin bununla yanaşı, ciddi təhlükələr də mövcuddur: **Vətəndaş jurnalist** müharibəni işıqlandırarkən özü qurban və ya hədəf ola bilər. Bilinmədən çəkilmiş və paylaşılan görüntülər düşmən üçün strateji üstünlük yarada bilər. Hər hansı bir məlumatın,

foto və ya video materialın kritik yerlərdən paylaşılması, düşmənin əlinə keçən yeni informasiya deməkdir və bu, ona müharibədə üstünlük qazandıra bilər. Buna görə də, real vaxt rejimində, xüsusilə müharibənin qaynar nöqtələrindən vətəndaş jurnalistlərinin video çəkməkdən çəkinməsi vacibdir.

Rusiyanın Ukraynaya qarşı müharibəsi zamanı **Telegram messencer** tətbiqi xüsusilə populyarlaşdı. Məhz **Telegram-**ın qapalı qruplarında Ukrayna vətəndaşları üçün tez-tez mühüm məlumatlar paylaşılırdı. Lakin bu qruplara nəzarət etmək və orada üzv olan insanların kimliyini müəyyənləşdirmək çox çətin idi. Bu barədə dəqiq sübutlar olmasa da, bəzi hallarda vətəndaşlar tərəfindən çəkilmiş videolardan sonra həmin yerlərin bombalandığı müşahidə olunub.

Müəyyən sübutlar olmasa belə, vətəndaşların çəkdikləri videoların konkret yerlərin bombalanmasına səbəb olub-olmaması bəlli deyil. Lakin strateji obyektlərin, hərbi qulluqçuların və ya digər kritik məqamların canlı yayımda və ya real vaxt rejimində paylaşılması yolverilməzdir, çünki bu görüntülərin kimlər tərəfindən izlənildiyini bilmirik.

Beynəlxalq humanitar hüququn fundamental qaydalarına əsasən, hər zaman və hər yerdə, peşə fəaliyyətinə görə silahlı münaqişə zonasında olan media peşəkarlarına qarşı qəsdən hücumlar, məqsədli aqressiya, zorakılıq, hədələmə, təhqir, girov götürmə və digər qanunsuz hərəkətlər qadağandır. Bu müddəaların əksəriyyətinin pozulması **hərbi cinayət** hesab olunur.

## ▶ Vətəndaş jurnalistinin təhlükəsizliyi və məlumatların qorunması

Vətəndaş jurnalistləri üçün məlumatların qorunması (Data Protection) xüsusi əhəmiyyət daşıyır, çünki onlar tez-tez şəxsi məlumatlar ehtiva edə bilən foto, video və audio materiallar yayımlayırlar**. Vacibdir ki, vətəndaş jurnalistlər məlumat əldə etmə və yayma prosesində məxfilik standartlarına riayət etsinlər** və **Gürcüstanın şəxsi məlumatların qorunması qanunvericiliyinə əsaslansınlar**. **C**əmiyyətin marağı ilə fərdi həyatın toxunulmazlığı arasında balans qorunmalıdır**,** beləliklə, insan hüquqları pozulmasın (*ECHR, Krone Verlag GmbH & Co. KG v. Austria*)[4]. Gizli çəkilişlərin istifadəsi qanun çərçivəsində[5] yalnız o halda mümkündür ki, bu, mühüm ictimai maraqlara xidmət etsin və fərdlərin məxfiliyini pozmasın**.**

Məlumatın təhlükəsiz saxlanması və yayılması da kritik aspektlərdəndir. Vətəndaş jurnalistlər məlumat sızmasının və ya icazəsiz istifadənin qarşısını almaq üçün təhlükəsiz bulud xidmətlərindən və şifrələnmiş saxlama üsullarından istifadə etməlidirlər. Şəxsi məlumatların yayımlanması zamanı ehtiyatlı olmaq vacibdir—şəxsin məkanını və ya təhlükəsizliyini riskə ata biləcək məlumatların açıqlanması minimuma endirilməlidir. Əlavə təhlükəsizlik tədbirləri üçün güclü şifrələrin istifadəsi və məlumatların şifrələnməsi tövsiyə olunur ki, informasiya icazəsiz girişlərdən qorunsun.

---

[4] EVHR, Krone Verlag GmbH & Co. KG v. Austria, 2012, əlçatandır ; https://hudoc.echr.coe.int/fre#{%22itemid%22:[%22001-111526%22 ]}

[5] Bax: Gürcüstanın şəxsi məlumatların qorunması haqqında qanunu, əlçatandır Gürcüstanın qanunvericilik veb-saytında:https://matsne.gov.ge/ka/document/view/1561437?publication=33 (son baxış tarixi: 01.02.2025).

## Birbaşa efirə çıxmağın riskləri və faydaları

Birbaşa efirə çıxmaq məlumatın sürətli yayılması və şəffaflığın təmin edilməsi baxımından vacibdir, lakin tam təhlükəsizliyi təmin etmir. Buna görə **vətəndaş jurnalistlər riskləri minimuma endirmək üçün təhlükəsizlik planına və əvvəlcədən hazırlanmış strategiyaya malik olmalıdırlar**.

Krizis anlarında mobil telefon vasitəsilə birbaşa yayıma qoşulmaq bəzi hallarda vətəndaş jurnalistinin təhlükəsizliyini artıra bilər. Bu zaman hadisələrin sənədləşdirilməsi baş verir, ictimai təzyiq və iştirakçılıq artır və beləliklə, “rəqəmsal müdafiə qalxanı” yaranır ki, bu da repressiv tədbirləri müəyyən dərəcədə zəiflədə bilər. Belə yayımlar montaj edilmədiyi və “iştirak effekti” yaratdığı üçün daha etibarlı sübut kimi qəbul edilir.

Bu cür yayımların riskləri də mövcuddur. Məsələn, vətəndaş jurnalist təkcə öz auditoriyasının deyil, həm də düşmən mövqedə olan qrupların diqqətini cəlb edir ki, bu da təhlükəni artırır. Bununla yanaşı, jurnalistin yerləşdiyi məkan müəyyən edilə bilər və bu məlumat ondan və ya başqalarından istifadə edərək axtarış və ya qorxutma məqsədilə tətbiq edilə bilər.

Birbaşa yayımlar təhlükəsizlik illüziyası da yarada bilər. Lakin avtoritar rejimlərə qarşı mübarizədə nəzərə almaq lazımdır ki, təkcə canlı yayımda olmaq zorakılığın qarşısını almaq üçün yetərli deyil – repressiv qüvvələr bu səbəbdən geri çəkilməyə bilər.

## Birbaşa yayıma çıxarkən və ya video çəkərkən nələri bilməliyik?

- Harada və nə üçün olduğunuzu qeyd edin.
- Hadisənin nə baş verdiyini və tamaşaçıların nəyə diqqət yetirməli olduğunu təsvir edin.
- Gördüyünüz qanunsuzluq, pozuntu və ehtimal olunan təqsirkar barədə faktları çatdırın.
- Uzunmüddətli yayım zamanı hər 2-3 dəqiqədən bir yeni qoşulan tamaşaçılar üçün hadisənin qısa xülasəsini təkrarlayın.
- Videoya və ya LIVE yanı birbaşa yayına başlıq qoyun: Mövzunun nədən bəhs etdiyini qısa şəkildə qeyd edə bilərsiniz.

## Trollar və botlar: Vətəndaş jurnalistlər nələri nəzərə almalıdır?

Bu gün sosial şəbəkələrdə əsas problemlərdən biri troll fermaları, troll-botlar və məhdudiyyətsiz şəkildə yayılan təbliğatdır.

İstifadəçilər üçün hesabın arxasında real insanın, yoxsa trollun dayandığını ayırd etmək çətin olur. Bu problem xüsusilə vətəndaş jurnalistlər üçün aktualdır. Onların yaydığı məlumatlar bəzi şəxslər və ya qruplar üçün xoşagəlməz ola biləcəyi üçün məhz vətəndaş jurnalistlər trolların hücumuna məruz qala bilərlər.

Trolların təşkilatlanmış hücumları aşağıdakı halları əhatə edə bilər:

- Postlara təhqiredici şərhlər və şəxsi mesajlar göndərmək;
- Məqsədyönlü şəkildə lağ etmək və cəmiyyətdə gözdən salmağa çalışmaq («həhə» gülüş smailləri kampaniyası);
- Vətəndaş jurnalistə psixoloji təzyiq göstərmək üçün koordinasiyalı hücumlar təşkil etmək.

**Vətəndaş jurnalistlər peşəkar jurnalistlərin malik olduğu müdafiə mexanizmlərindən istifadə edə bilmirlər. Buna görə də media təşkilatları ilə əməkdaşlıq onlar üçün əlavə dəstək resursudur.**

# 9. VƏKILLIK VƏ INKLÜZIVLIK

Vətəndaş jurnalistikası ənənəvi və əsas media gündəmində az yer alan qrupların və mövzuların aktuallaşdırılmasına kömək edir. O, kultivasiya effektini yarada və stereotiplərin dəyişdirilməsində rol oynaya bilər, xüsusilə siyasi iştirakçılıq və inklüzivlik məsələləri ilə bağlı.

**Vətəndaş jurnalistikası vətəndaş aktivliyini təşviq edə bilər**, eləcə də qadınlar və qızlarla bağlı problemləri və mövzuları gündəmə gətirə bilər. Bu, seçkilər, siyasi böhranlar və cəmiyyət üçün vacib olan digər məsələlər (təhsil, iqtisadiyyat, məşğulluq və s.) kontekstində baş verə bilər.

Vətəndaş jurnalistikası marginal və həssas qrupları gücləndirir, onların öz problemlərini daha geniş auditoriya qarşısında ifadə etməsinə imkan yaradır. Xüsusilə gender stereotiplərinin aradan qaldırılmasında və qadınlara, etnik azlıqlara və fiziki məhdudiyyətləri olan şəxslərə təsir edən ictimai-siyasi proseslərin işıqlandırılmasında mühüm rol oynayır.

Texnoloji inkişaf və sosial medianın imkanları sayəsində qadınlar və marginal qruplar cəmiyyətin müzakirə proseslərinə daha fəal şəkildə qoşulublar. Vətəndaş jurnalistləri qadınlara qarşı zorakılıq, siyasi diskriminasiya və iqtisadi bərabərsizlik kimi məsələlərin işıqlandırılmasında mühüm rol oynayıblar. Vətəndaş jurnalistikası qadınların ictimai və siyasi proseslərdəki rolu ilə bağlı köhnə stereotipləri sındırır. O, qadınları müxtəlif sahələrdə – siyasət, iqtisadiyyat və sosial aktivizm kimi – fəal iştirakçılar kimi təqdim edir.

Məsələn, Gürcüstanda etiraz aksiyaları zamanı qadınların iştirakı həm sosial şəbəkələrdə, həm də əsas mediada xüsusi olaraq diqqət çəkir. Lakin gender dezinformasiyası hələ də ciddi problem olaraq qalır. Bu, qadınların nüfuzuna xələl gətirmək üçün gender narrativlərindən istifadə edən məqsədyönlü saxta məlumatlardır. Xüsusilə seçkilər, siyasi böhranlar və ictimai-siyasi dəyişikliklər dövründə bu cür dezinformasiya daha da aktuallaşır. Vətəndaş jurnalistləri isə bu cür manipulyativ məlumatları ifşa etməkdə mühüm rol oynaya bilərlər.

Vətəndaş jurnalistika təkcə problemləri işıqlandırmaqla kifayətlənmir, eyni zamanda aktivizmin təşviqində də mühüm rol oynayır. Vətəndaş jurnalistləri qadınların seçkilərdə iştirakını və onların qarşılaşdığı siyasi maneələri işıqlandıra, həmçinin mediada və cəmiyyətdə inklüzivliyə və bərabərliyə dəstək verə bilərlər.

Gender məsələlərinin işıqlandırılmasında həmrəylik jurnalistikası prinsiplərinə əməl etmək xüsusilə vacibdir. Vətəndaş jurnalistləri təkcə informativ deyil, eyni zamanda dəstək və empatiya mesajı verən məzmunlar yarada bilərlər.

Məsələn, *Azadlıq Radiosu*nun veb-saytında yer alan *“Mənə danış”* rubrikası qadınlara qarşı zorakılıq hekayələrinə fokuslanır. Bu cür təşəbbüslər cəmiyyəti məlumatlandırmaqla yanaşı, zorakılıq qurbanlarını gücləndirməyə də kömək edir. Gender həssas mövzuların işıqlandırılmasını daha da gücləndirmək üçün bu format digər platformalarda da tətbiq oluna bilər.

Vətəndaş jurnalistikasının gücləndirilməsi gender bərabərliyini və inklüzivliyi təşviq edir. O, qadınlar və marginal qruplar üçün alternativ məkan yaradır ki, burada onlar öz problemlərini səsləndirə və ictimai müzakirələrdə fəal iştirak edə bilsinlər.

Gürcüstanda qadınların siyasi iştirakçılığı hələ də ciddi çağırış olaraq qalır. Bu kontekstdə vətəndaş jurnalistikası mövcud maneələrin aradan qaldırılmasında mühüm rol oynaya bilər.

### Əgər vəkillik fəaliyyətinə qoşulmaq istəyirsinizsə, nəzərə alın:

- Sizi narahat edən və maraqlandıran mövzuları seçin və onları cəmiyyət üçün aktual problemlərlə əlaqələndirin.
- Ənənəvi medianın maraq göstərmədiyi və ya işıqlandırmaq üçün kifayət qədər resursu olmayan mövzuları seçin.

# 10. NECƏ VƏTƏNDAŞ JURNALISTI OLA BILƏRIK?

Bəzən elə bir vəziyyətdə ola bilərsiniz ki, təsadüfi vətəndaş jurnalistinə və ya bir dəfəlik töhfə verən şəxsə (*one-off contributor*) çevriləsiniz. Rodriqesin (2014, s. 205) dediyi kimi, bu, *"düzgün zamanda, düzgün yerdə olan şəxsdir."*

Yaxşı bir vətəndaş, keyfiyyətli jurnalist məzmununun yaradılmasında iştirak edə bilər. Budur, nəzərə ala biləcəyiniz bəzi məqamlar:

## VƏTƏNDAŞ JURNALISTI ÜÇÜN 12 QIZIL QAYDA!

| | |
|---|---|
| 1 | **Məlumatın ictimaiyyət üçün həqiqətən vacib və dəyərli olub-olmadığını qiymətləndirin.** |
| 2 | **Özünüzə nəzarət edin: emosional açıqlamalardan və dəqiqləşdirilməmiş məlumatların yayılmasından çəkinin.** |
| 3 | **Video və ya foto çəkərkən kameranı sabit saxlayın, kəskin hərəkətlərdən qaçın.** |
| 4 | **Hadisəni diqqətlə izləyin və təsvir edin, faktları, vaxtı, məkanı, iştirakçıları və konteksti qeyd edin; şahidlərlə danışaraq məlumatları dəqiqləşdirin.** |
| 5 | **Auditoriyanı məlumatlandırmaq üçün qısa və aydın təsvir əlavə edin.** |
| 6 | **Auditoriyanızı və uyğun platformanı seçin.** |
| 7 | **Hashtag-lardan istifadə edin və aidiyyəti təşkilatları və ya media qurumlarını işarələyin.** |
| 8 | **Paylaşım etdikdən sonra reaksiyaları izləyin.** |
| 9 | **Etik standartlara əməl edin və "zərər verməˮ prinsipinə riayət edin: yalan və ya həssas məlumat yaymayın, çünki bu, başqalarına zərər vura bilər.** |
| 10 | **Dəqiqləşdirilməmiş, diskriminasiya, nifrət və ya şəxsi məlumatlar ehtiva edən informasiyaları paylaşmayın.** |
| 11 | **Öz fiziki və rəqəmsal təhlükəsizliyinizi qoruyun: həyat və sağlamlığınız üçün təhlükə yarada biləcək yerlərə getməyin.** |
| 12 | **Etibarlı media qurumları və peşəkar jurnalistlərlə əməkdaşlıq edin.** |

# 11. FAYDALI RESURSLAR

Texnologiyanın inkişafı ilə vətəndaş jurnalistlərinə informasiya toplamaq, sənədləşdirmək, redaktə etmək və yayımlamaq üçün kömək edən tətbiq və platformalar da dəyişir. **2025-ci il üçün aktual olan resurslar bunlardır:**

» **CitizenEye** – Vətəndaş jurnalistləri üçün hazırlanmış qabaqcıl mobil tətbiq. O, videoların, fotoların, audio yazıların çəkilməsi, redaktə edilməsi və canlı yayımlanması (Live Streaming) kimi funksiyaları özündə birləşdirir. İstifadəçilərə məzmunu birbaşa sosial şəbəkələrdə və ya media qurumları ilə paylaşmaq imkanı verir.

» **KineMaster** – iOS və Android üçün əlçatan olan peşəkar montaj və redaktə tətbiqi. Çoxfunksiyalı interfeysi ilə video materialların keyfiyyətli emalını təmin edir.

» **Splice** – *GoPro* şirkətinin hazırladığı və yalnız iOS üçün mövcud olan pulsuz video montaj tətbiqi. Video materialların işlənməsi, effektlərin və titrlərin əlavə edilməsi, başlıq və musiqi ilə bəzədilməsi kimi funksiyalara malikdir.

» **Adobe Premiere Clip** – Kompüter versiyası ilə inteqrasiya oluna bilən və ya təkbaşına işləyə bilən mobil video montaj tətbiqi. Avtomatik montaj funksiyası sayəsində vaxt azlığı və ya montaj bacarığı olmayanlar üçün idealdır. Peşəkarlar üçün də kifayət qədər inkişaf etmiş xüsusiyyətlərə malikdir. iOS və Android platformalarında pulsuz olaraq istifadə edilə bilər.

» **Life360** – Lokasiya paylaşımı və təhlükəsizlik məqsədilə yaradılmış tətbiq. Ailə üzvləri və qruplar üçün real vaxt rejimində yer məlumatlarını paylaşmağa, təhlükə barədə bildiriş göndərməyə və hərəkət marşrutlarını izləməyə imkan verir. Bu tətbiqlər vətəndaş jurnalistlərinin daha effektiv və təhlükəsiz fəaliyyət göstərməsinə kömək edə bilər.

Vətəndaş jurnalistləri tez-tez riskli və təhlükəli mühitlərdə işləməli olurlar. **Life360** tətbiqi onların öz lokasiyalarını etibarlı şəxslərlə paylaşmasına imkan verərək təhlükəsizliyi artırır.

Əgər vətəndaş jurnalistləri qrup halında fəaliyyət göstərirlərsə, tətbiq onların hərəkətini koordinasiya etməyə və sürətli əlaqə qurmağa kömək edir. Təcili vəziyyətlər üçün **Life360-**un **SOS** funksiyası avtomatik olaraq əvvəlcədən seçilmiş əlaqə şəxslərinə və fövqəladə xidmətlərə bildiriş göndərir. Marşrut tarixçəsi funksiyası isə jurnalistlərin səfərlərini və toplanmış materialları sənədləşdirmək üçün faydalı ola bilər.

» **PimEyes** süni intellekt (AI) tərəfindən üz tanıma sistemidir ki, internetdə mövcud olan şəkilləri axtarır və təhlil edir. O, istifadəçilərə foto yükləyərək, həmin şəkilin digər versiyalarını müxtəlif vebsaytlarda tapmaq imkanı yaradır. **PimEyes** vətəndaş jurnalistlərinə konkret şəxslərin fotolarını müxtəlif mənbələrdə tapmaq, şəkillərin manipulyasiya olunub-olunmadığını və ya fərqli kontekstdə istifadə edilib-edilmədiyini yoxlamaq üçün kömək edir. Vətəndaş jurnalistləri bu tətbiqdən ictimai məkanlarda kritik hadisələrdə iştirak edən şəxsləri müəyyən etmək üçün istifadə edə bilərlər. Lakin **PimEyes**-dən istifadə edərkən məlumatların qorunması və şəxsi həyatın məxfiliyinin etik standartları nəzərə alınmalıdır.

**Bu və digər tətbiqlərdən istifadə edərkən etik standartlara və məlumatların qorunması prinsiplərinə riayət etmək vacibdir.**

# TÖVSIYƏLƏR

## Media təşkilatları üçün:

- **Vətəndaş jurnalistləri və aktivistlərlə əməkdaşlıq etmək –** Bu, informasiya mübadiləsini təşviq edir və daha dəqiq, balanslı xəbər yayımına töhfə verir.

- **Peşəkar jurnalistlərlə vətəndaş jurnalistləri arasında əməkdaşlıq şəbəkəsi yaratmaq və gücləndirmək –** Vətəndaş jurnalistlərinin təlimlərdən keçməsi, təcrübə mübadiləsi və peşəkar bacarıqlarının artırılması üçün mühüm addımdır.

- **Birgə şəkildə etik standartların möhkəmləndirilməsi üzərində işləmək –** Media qurumları vətəndaş jurnalistlərinə məlumatların yoxlanılmasında və məzmunun etik çərçivədə hazırlanmasında dəstək verməlidirlər.

## Vətəndaş jurnalistləri və aktivistlər üçün:

- Məsləhətdir ki, vətəndaş jurnalistlər media təşkilatları ilə əməkdaşlıq etsinlər ki, onların materialları daha geniş yayılsın, yoxlanılmış və etibarlı olsun.

- Vətəndaş jurnalist əsas etik standartları bilməlidir, bu da etibarlı və obyektiv informasiyanın yayılmasını təmin edəcək.

- Krizis bölgələrini işıqlandırarkən məkanın seçimi diqqətlə edilməlidir – vətəndaş jurnalist canlı yayıma başlamazdan əvvəl elə bir yerdə olmalıdır ki, lazım gəldikdə oradan tez çıxa bilsin.

- Canlı yayımdan əvvəl auditoriyanı məlumatlandırmaq tövsiyə edilir, beləliklə, insanlar yayımın məqsədini anlayacaq və məlumatın paylaşılmasına daha çox motivasiya olunacaqlar.

- Canlı yayım zamanı məlumatların təhlükəsizliyi qorunmalıdır və avtomatik olaraq videonu saxlayan platformalardan (***məsələn, Facebook, Instagram, YouTube***) istifadə edilməlidir ki, material itməsin.

- Sosial şəbəkələrdə insanları etiketləyərkən və şəxsi məlumatları paylaşarkən ehtiyatlı olmaq lazımdır – insanların icazəsi olmadan onların kimliyini açıqlamamaq tövsiyə edilir.

- Krizis bölgələrində vətəndaş jurnalistlərin qrup halında işləməsi məqsədəuyğundur, çünki bu, vəziyyətin monitorinqini və operativ reaksiya verməyi asanlaşdırır.

- Vətəndaş jurnalistlər hüquqşünaslarla məsləhətləşməlidirlər ki, öz hüquqlarını bilsinlər.

## Qeyri-hökumət təşkilatları və müşahidəçilər üçün:

- İnformasiya, media və rəqəmsal savadlılığın artırılması üzərində işləmək tövsiyə olunur.
- Məlumatın operativ mübadiləsi üçün vətəndaş jurnalistləri ilə koordinasiyanı gücləndirmək məqsədəuyğundur.
- Seçkilərdə müşahidəçilərin vətəndaş jurnalistikası sahəsində təlim keçməsi tövsiyə olunur.

## Hökumət və siyasi partiyalar üçün:

- **Hüquqi çərçivənin təkmilləşdirilməsi vacibdir.** Xüsusilə, Gürcüstan qanunvericiliyində media ekosisteminin yeni strukturu nəzərə alınmalı və vətəndaş jurnalistlərinin rolu rəsmi olaraq tanınmalıdır.
- **Xüsusi mexanizmlərin hazırlanması tövsiyə olunur**, bu da vətəndaş jurnalistlərinə mənbənin məxfiliyini qorumaq hüququ verəcək, xüsusilə ictimai maraq kəsb edən materialların hazırlanması zamanı.

# NƏTICƏ

Vətəndaş jurnalistikası informasiya ekosisteminin bir hissəsinə çevrilib və demokratik dayanıqlılığı gücləndirmək potensialına malikdir. Vətəndaşlar texnoloji inkişaf və sosial media vasitəsilə informasiya yaratmaqda və yaymaqda mühüm rol oynayırlar, xüsusilə seçkilər, siyasi böhranlar və digər vacib hadisələr zamanı. Vətəndaş jurnalistləri informasiya axınının mərkəzləşdirilmədən yayılmasına töhfə verirlər.

Gürcüstanda **2024-cü il parlament seçkilərində** vətəndaş jurnalistlərinin operativ fəaliyyəti ənənəvi və onlayn medianın diqqətdən kənarda qala biləcək hadisələri işıqlandırmasına kömək etdi. Onların çəkdiyi videolar və fotolar yalnız auditoriyanı məlumatlandırmaq üçün deyil, həm də seçki pozuntularının və çatışmazlıqların aşkarlanması prosesində sübut kimi istifadə olundu.

Vətəndaş jurnalistikasının inkişafı ilə yanaşı, qarşıya çıxan çağırışlar da artır. Dezinformasiyanın yayılma riski, məlumatların qorunması məsələləri, vətəndaş jurnalistlərinin təhlükəsizliyi və etik standartlara riayət edilməsi əsas problemlər olaraq qalır. Bu sahədə informasiya, media və rəqəmsal savadlılığın inkişafı mühüm əhəmiyyət daşıyır.

Vətəndaş jurnalistikasının təşviqi və gücləndirilməsi təkcə media mühitinin demokratikləşməsinə deyil, həm də həmrəylik jurnalistikasının inkişafına töhfə verir. Bu, fərqli və marginal qrupların səsini cəmiyyətə çatdırmaq üçün yeni imkanlar yaradır. Həmrəylik və dəstək atmosferinin möhkəmlənməsi sayəsində vətəndaş jurnalistikası sosial ədalət və siyasi dəyişikliklər üçün katalizator rolunu oynaya bilər.

Şübhəsiz ki, yaxşı vətəndaş və keyfiyyətli jurnalistikanın vəhdəti demokratiyanı gücləndirir. Bu baxımdan, vətəndaş jurnalistlərinin bacarıqlarının artırılması və ənənəvi media ilə əməkdaşlığın gücləndirilməsi xüsusilə vacibdir. Bu, cəmiyyət və media arasındakı etimadı möhkəmləndirəcək və nəticədə, media mühitinin ümumi inkişafına töhfə verəcək.

# İSTIFADƏ OLUNMUŞ MƏNBƏLƏR


- Allan, S. (2007). Citizen journalism and the rise of 'mass self-communication': Reporting the London bombings. Global Media Journal: Australian Edition, 1(1), 1–20. (last seen: 01.11.2024)
- Allan, S. (2017). Citizen witnessing of human rights abuses. In H. Tumber & S. Waisbord (Eds.), The Routledge Companion to Media and Human Rights (pp. 347–356). Routledge. (last seen: 01.11.2024)
- American Civil Liberties Union (ACLU). (n.d.). Glik v. Cunniffe. from https://www.aclum.org/en/cases/glik-v-cunniffe (last seen: 01.11.2024)
- Atton, Chris. 2003. What is "alternative journalism"? Journalism: Theory, Practice and Criticism 4, no. 3:267-400. (last seen: 01.11.2024)
- Associated Press. (2023, January 15). Russian missiles and drones strike Kharkiv and other Ukrainian cities. AP News. https://apnews.com/article/russia-ukraine-war-missiles-drones-kharkiv-73339b748611c8bdec3322ebf0b55693 (last seen: 03.11.2024)
- Balguy-Gallois A., 2004. Protection of Media Professionals in Armed Conflicts, Available at: https://www.icrc.org/en/doc/assets/files/other/irrc_853_gallois.pdf (Last accessed: 05.12.2024).
- BBC News. (2015, June 3). Georgia flood: Tbilisi residents warned over zoo animals after devastating flood https://www.bbc.com/news/world-europe-33125879 (last seen: 01.11.2025)
- Britannica. (n.d.). Citizen journalism, In Encyclopedia Britannica. Retrieved: 03.11.2024, available at: https://www.britannica.com/topic/citizen-journalism (last seen: 03.11.2024)
- British Red Cross. (2017). Media Professionals and Armed Conflict: Protection and Responsibilities under International Humanitarian Law. Textbook. Available at: https://www.biicl.org/projects/media-professionals-and-international-humanitarian-law (Last accessed: 03.12.2024).
- CNN. (2023, January 15). Russian missile strike in Dnipro, Ukraine, kills at least 40 people. CNN. Available at: https://edition.cnn.com/2023/01/15/europe/dnipro-ukraine-war-russian-missile-strike-intl/index.html (last seen: 02.11.2024)
- Council of Europe. (2018, June 14). Factsheet on whistleblowers. Retrieved February 4, 2025, from https://rm.coe.int/factsheet-on-whistleblowers-14june2018/16808b3531 (last seen: 20.01.2025)
- Dictionary.ge. (n.d.). Whistle-blower. Retrieved February 4, 2025, from https://dictionary.ge/ka/word/whistle-blower/?fbclid=IwZXh0bgNhZW0CMTEAAR2zdIcX42s2MzxnJR8HxMxyRDMc3ux-GHwCPyLVF3XEtTHkwj5Wc9lFz6s_aem_PTfxaY4HWgNBYyV24rn8VQ (last seen: 04.11.2024)

- European Court of Human Rights. Contributions to public debate: Journalists and other actors. European Court of Human Rights. Available at: https://ks.echr.coe.int/documents/d/echr-ks/contributions-to-public-debate-journalists-and-other-actors (last seen: 03.11.2024)
- ECHR, Case of Magyar Helsinki Bozottsag v. Hungary (2016). European Court of Human Rights. Available at: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-167828%22]} (last seen:03.11.2024)
- ECHR, Case of Oberschlick v. Austria (1997). European Court of Human Rights. Available at: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-58044%22]} (last seen: 03.11.2024)
- ECHR, Krone Verlag GmbH & Co. KG v. Austria (2012). European Court of Human Rights. Available at: https://hudoc.echr.coe.int/fre#{%22itemid%22:[%22001-111526%22]}. (last seen: 03.11.2024)
- EVHR, Krone Verlag GmbH & Co. KG v. Austria, 2012,From: https://hudoc.echr.coe.int/fre#{%22itemid%22:[%22001-111526%22]} (last seen: 03.11.2024)
- Facebook. (Darnela Frazier). [They killed him right in front of cup foods over south on 38th and Chicago!! No type of sympathy] [Video]. from https://www.facebook.com/share/v/1A7U5BgZJ4/ (last seen: 20.01.2025)
- Federal Bureau of Investigation. (n.d.). Boston Marathon bombing. FBI. https://www.fbi.gov/history/famous-cases/boston-marathon-bombing?utm_source=chatgpt.com (last seen:03.11.2024)
- Gardner-Webb University. (n.d.). Circular reporting. Gardner-Webb University Libraries. https://gardner-webb.libguides.com/fake-news/circular-reporting (last seen: 01.11.2024)
- Geneva Conventions and Additional Protocols. Available at: https://ihl-databases.icrc.org/en/ihl-treaties/geneva-conventions-1949additional-protocols-and-their-commentaries (Last accessed:05.12.2024).
- Gersamia, M., Toradze M., Bandzeladze, M., (2023), Media Environment 2023: Challenges during Political Polarization and Crisis in Georgia, Media and Communication Educational and Research Center “Media Voice”, available at: https://www.mediavoice.ge/_files/ugd/8d9aa3_643df6f4729945e58830ef280e48835c.pdf (last seen: 01.11.2024)
- Gersamia, M., Gigauri E., Gurgenidze G., (2025), Media Environment 2024: Fighting for Trust and Freedom in Georgia, Media and Communication Educational and Research Center “Media Voice”, available at: https://www.mediavoice.ge/ (last seen: 01.30.2025)
- GYLA is requesting the annulment of the results from all polling stations (2,263 stations) where technology was used, due to violations of voting secrecy. (n.d.). Available at: https://gyla.ge/en/post/GYLA-gancxadeba-30octomberi (last seen: 02.11.2024)

- Human Rights Watch. (2024, February 8). Ukraine: New findings on Russia’s devastation of Mariupol. Human Rights Watch. https://www.hrw.org/news/2024/02/08/ukraine-new-findings-russias-devastation-mariupol (last seen: 01.11.2024)

- International Committee of the Red Cross (ICRC). (n.d.). Geneva Convention III: Treatment of Prisoners of War (1949). from https://ihl-databases.icrc.org/en/ihl-treaties/gciii-1949 (last seen: 01.11.2024

- Johnson, K. A., & St. John, B., III. (2017). Citizen journalists’ view on traditional notions of journalism, story sourcing, and relationship building. Journalism Studies, 18(3), 341–357.

- Key Texts on Journalists' Safety and Freedom of Expression, Declarations, Decisions, Resolutions, and Conventions (Non-exhaustive list available in the UNESCO database). Available at: https://www.unesco.org/en/safety-journalists/basic-texts (Last accessed: 02.11.2024).

- Lasica, J. D. (2003). Blogs and journalism need each other. Nieman Reports (Fall), 70–74.

- Lotan, G., Graeff, E., Ananny, M., Gaffney, D., Pearce, I., & boyd, d. (2011). The revolutions were tweeted: Information flows during the 2011 Tunisian and Egyptian revolutions. International Journal of Communication, 5, 1375–1405. (Last seen: 01.11.2024)

- Mapping Media Freedom - Alert Explorer. (2024, October 25). Mapping Media Freedom,available at: https://www.mapmf.org/explorer?f.from=2024-10-25&f.to=2024-10-27&f.country=Georgia (last seen: 02.11.2024)

- Metzger, J. (2011). Strange spaces: A rationale for bringing art and artists into the planning process. Planning Theory, 10(3), 213-238. https://doi.org/10.1177/1473095210389653 (last seen: 02.11.2024)

- Media Freedom Rapid Response (MFRR). (n.d.). Home. from https://www.mfrr.eu/ (last seen: 02.11.2024)

- Miller S., Citizen Journalism, Oxford research encyclopedia of communication, Online Publication Date: 2019 DOI: 10.1093/acrefore/9780190228613.013.786

- OSCE Office for Democratic Institutions and Human Rights (ODIHR). (2024, December 20). Georgia parliamentary elections, 26 October 2024: ODIHR election observation mission final report. Retrieved from https://www.osce.org/files/f/documents/1/6/584029.pdf (Accessed December 25, 2024).

- Papacharissi, Z. (2015). We have always been social. Social Media + Society, 1(1), 1–2. https://doi.org/10.1177/2056305115581185 (last seen: 04.11.2024)

- Pulitzer Prize. (n.d.). Darnella Frazier. Pulitzer Prize. https://www.pulitzer.org/winners/darnella-frazier (last seen: 03.11.2024)

- Rodrigues, C. (2014). A Latin American approach to citizen journalism. in Wall, M, Citizen journalism Practices, Propaganda, pedagogy, Routledge, 2022, (p. 3).
- Ross R., Cormier S., (2010), Handbook for Citizen journalists, National Association of Citizen njournalists.
- Statement from President Joe Biden on Democratic Backsliding in the Country of Georgia, October 29, 2024, available at: https://www.whitehouse.gov/briefing-room/statements-releases/2024/10/29/statement-from-president-joe-biden-on-democratic-backsliding-in-the-country-of-georgia/ (last seen: 01.11.2024)
- Statement on Georgia parliamentary election From Global Affairs Canada, October 28, 2024, Ottawa, Ontario, available at: https://www.canada.ca/en/global-affairs/news/2024/10/ statement-on-georgia-parliamentary-election.html (last seen: 01.11.2024)
- United Nations. Universal Declaration of Human Rights. United Nations. https://www.un.org/en/about-us/universal-declaration-of-human-rights (last seen: 03.11.2024)
- U.S. State Department Press Briefing, October 28, 2024, Matthew Miller, Department Spokesperson, available at: https://www.state.gov/briefings/department-press-briefing-october-28-2024/ and https://www.state.gov/briefings/department-press-briefing-october-30-2024/ (last seen:01.11.2024)
- Wall, M. (2015). Citizen journalism. Digital Journalism, 3(6), 797–813.
- YouTube. (2024, February 8). content warning: video of the Arrest of George Floyd in Minneapolis YouTube. Available at: https://youtu.be/CEZh0C-pmaw?si=3rKYX-AfAlnCRdEi (last seen: 02.11.2024)
- YouTube. (2024, February 8). 2021 Pulitzer Prize Announcement YouTube. Available at: https://www.youtube.com/watch?v=kQ_0PAVpQoU (last seen: 02.11.2024)

**“Media və Kommunikasiya Təhsil və Tədqiqat Mərkəzi” – “MediaSəs”** 2015-ci ildə təsis edilmişdir.

Mərkəzin məqsədi media və kütləvi kommunikasiya sahəsinin inkişafına dəstək vermək, təhsil-tədqiqat fəaliyyətini həyata keçirməklə yeni biliklər yaratmaq, media savadlılığını artırmaq və demokratik dəyərlərin möhkəmlənməsinə töhfə verməkdir.

Eyni zamanda, media mühitinin qiymətləndirilməsi, media, kommunikasiya, media psixologiyası, media hüququ və ictimai əlaqələr sahələrində bilik mübadiləsi və məsləhət xidmətlərinin göstərilməsi, elmi tədqiqatların aparılması və milli və beynəlxalq səviyyədə elmi potensialın tanıdılması mərkəzin əsas fəaliyyət istiqamətləridir.

Mərkəz müxtəlif layihələr çərçivəsində yerli və beynəlxalq təşkilatlarla, təhsil müəssisələri və media qurumları ilə əməkdaşlıq edir.

2023-cü ildən etibarən Mərkəz Cənubi Qafqaz regionunda “Media Azadlığı Koalisiyası”nın məsləhət şəbəkəsinin yeganə nümayəndəsidir. 2024-cü ildən isə “Qlobal Media İnkişaf Forumu”nun (GFMD) və Anti-SLAPP Koalisiyasının üzvüdür.

**Vebsayt:** https://www.mediavoice.ge/
**E-mail:** info@mediavoice.ge

**Sosial şəbəkələr:**
Facebook: Media Voice Georgia
Instagram: @mediavoice_georgia
LinkedIn: Media Voice Georgia
Twitter/X: @MediaVoice_Geo